Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır:

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri" təsdiq edilsin (əlavə olunur).

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 noyabr 2018-ci il

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri

Maddə 1. Ümumi təsvir

1.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı eni bərabər olan üç üfüqi zolaqdan ibarət düzbucaqlı şəklindədir. Yuxarı zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Düzbucaqlının eninin uzunluğuna nisbəti 1:2-dir.

1.2. Qırmızı zolağın ortasında aypara və səkkizguşəli ulduz təsviri vardır. Aypara və ulduz ağ rəngdədir. Ayparanın ucları ondan sağda yerləşən ulduza istiqamətlənmişdir.

Maddə 2. Rəngli və sxematik təsvir

2.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Bayrağının sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər

kataloqunun Pantone 306C rəng koduna, qırmızı rənginin Pantone Red 032C rəng koduna, yaşıl rənginin Pantone 362C rəng koduna uyğunluğu təmin edilir.


"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə əlavə

Azərbaycan Respublikası Dövlət Bayrağının rəngli təsviri



"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə əlavə

Azərbaycan Respublikası Dövlət Bayrağının sxematik təsviri



Azərbaycan Respublikası Dövlət Bayrağının ölçülərinin nisbəti		
A: Bayrağın eni	1	A
B: Bayrağın uzunluğu	2	A
A_1: Bayrağın mavi zolağının eni	1/3	A
A_2: Bayrağın qırmızı zolağının eni	1/3	A
A_3: Bayrağın yaşıl zolağının eni	1/3	A
C: Bayrağın sol kənarından ayparanın daxili çevrəsinin mərkəzinədək olan məsafə	0,5	B
D: Ayparanın xarici çevrəsinin diametri	0,286	A
D_1: Ayparanın daxili çevrəsinin diametri	0,220	A
D_2: Ulduzun xarici çevrəsinin diametri	0,166	A
D_3: Ulduzun daxili çevrəsinin diametri	0,078	A
F: Ayparanın daxili və xarici çevrələrinin mərkəzləri arasındakı məsafə	0,035	A
G: Ulduz çevrəsinin mərkəzi ilə ayparanın xarici çevrəsinin mərkəzi arasındakı məsafə	0,140	A